Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2021, **s. 79-84**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2021, **с. 79-84**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2021, **pp. 79-84**

UOT 37.03:781.24

Nərgiz Əli qızı Haqverdiyeva
baş müəllim
Gəncə Dövlət Universiteti
AZ 2001, Gəncə ş., Heydər Əliyev pr. 429
E-mail: narqizhaqverdiyeva.@gmail.com

FORTEPİANO İFAÇILIĞININ TƏLİMİ PROSESİNDƏ NOTDAN (ÜZDƏN) OXU VƏRDİŞLƏRİNİN İNKİŞAFININ ƏSAS CƏHƏTLƏRİ

Açar sözlər: *üzdən (notdan) oxu, fortepiano, musiqi, ifaçı, təlim, inkişaf, əsər*

Fortepiano ifaçılıq təlimi prosesində musiqi əsərlərinin hazırlaşmadan üzdən (notdan) oxumaq vərdişlərinin inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır. Musiqi əsərlərini üzdən (notdan) oxumaq bacarığı ifaçının peşəkarlığının göstəricisidir. Bir fəaliyyət növü kimi, üzdən (notdan) oxumaq prosesi ifaçıya zəngin musiqi ədəbiyyatı ilə geniş və hərtərəfli tanışlıq imkanı yaradır.

Hazırlaşmadan üzdən (notdan) oxumaq bacarığı və onun keyfiyyəti ifaçının ümumi hazırlığından, eşitmə qabiliyyətindən, musiqi yaddaşından, nəzəri biliklərindən və təcrübəsindən asılıdır. Notdan (üzdən) oxumaq prosesi ifaçılarda musiqi təfəkkürünün, intellektinin formalaşmasında və inkişafında mühüm rol oynayır.

Н.А.Хагвердиева

РАЗВИТИЕ НАВЫКОВ ЧТЕНИЯ НОТНОГО ТЕКСТА С ЛИСТА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ИГРЕ ФОРТЕПИАНО

Ключевые слова: *чтение нот с листа, фортепиано, музыка, исполнитель, обучение, развитие, произведение*

Целью статьи является рассмотрение и анализ основных положений формирования и развития навыка чтения нотного текста с листа в процессе обучения игре на фортепиано. Умение быстро и качественно читать музыкальное произведение с листа говорит о высоком профессионализме музыканта-исполнителя. Навык игры нотного текста с листа, а также его качество зависит от общей подготовки, музыкального слуха и памяти, практики и теоретических знаний исполнителя. В связи с этим рассматриваются основные методы развития навыков чтения нотного текста с листа в классе фортепиано.

N.A.Haqverdiyeva

IMPROVEMENT OF READING FROM SHEET IN TRAINING PROSES OF PIANO PLAYING

Key words: *reading notes from sheet, fortepiano, music, training, education, development, composition*

The purpose of the article is to consider and analyze the main provisions of the formation and development of the skill of reading music from a sheet of paper in the process of learning to play the piano. The ability to quickly and efficiently read a piece of music from sight speaks of the high professionalism of the musician-performer. The skill of playing sheet music from sight, as well as its quality, depends on general training, ear for music and memory, practice and theoretical knowledge of the performer. In this regard, the main methods of developing the skills of reading sheet music in a piano class are deeply analyzed.

Hazırlaşmadan notdan ifa qabiliyyəti, onun formalaşması və inkişafı üçün istifadə olunan metodlar hər zaman görkəmli musiqiçilərin, pedaqoqların, metodistlərin diqqət mərkəzində olmuşdur.

Musiqi pedaqogikasına həsr olunmuş ədəbiyyatın təhlili göstərir ki, hələ XVII-XVIII əsrlərdə tanınmış musiqiçilər Filipp Emmanuil Bax (1719-1788) ("Опыт истинного искусства игры на клавире", 1753-1762, I-II hissə), Xristian Şubart (1739-1791) ("Идеи к эстетике музыкального искусства", 1784) öz traktatlarında üzdən (notdan) oxumaq qabiliyyəti və vərdişlərin inkişafı haqqında maraqlı fikirlər irəli sürmüşlər.

XIX əsrin ortalarında notdan oxuma üzrə tələblər tanınmış təhsil ocaqlarının tədris proqramlarına daxil edilmişdir. Belə ki, Moskva Konservatoriyasında fortepiano təliminin bu sahəsinə çox ciddi tələblər qoyulurdu. Görkəmli pianoçu-pedaqoq Nikolay Rubinşteyn (1835-1881) öz sinfində müntəzəm olaraq fortepiano konsertlərinin müşayiətini tələbələrindən üzdən (notdan) çalmağı tələb edirdi.

Tanınmış musiqiçi-pedaqoqlar Zverev Nikolay Serqeyeviç (1832-1893), Safonov Vasiliy İvanoviç (1852-1918), Nikolayev Lev Vladimiroviç (1878-1942), Neyqauz Qenrix Qustavoviç (1888-1964) öz məşğələlərində notdan (üzdən) ifa vərdişlərinin formalaşmasına xüsusi diqqət göstərmişlər. Onların fikrincə musiqiçi-tələbələrin gündəlik məşğələlərinin bir hissəsi mütləq hazırlaşmadan üzdən (notdan) oxu vərdişlərinin inkişafı üzərində işə həsr olunmalıdır. Fransız piano məktəbinin görkəmli nümayəndəsi pedaqoq, metodist Alfred Korto (1877-1962) "Gənc müəllimlər üçün məsləhətlər" metodik işində haqlı olaraq qeyd edir ki, "Hər tələbənin gündəlik iş prosesinin

vaxtını aşağıdakı kimi bölmək məqsədə uyğundur...çalışmalar, etüdlər, pyeslər və üzdən (notdan) oxu üzərində iş" [1, s.145].

Təəssüflə qeyd etmək lazımdır ki, fortepianoda üzdən (notdan) oxumaq vərdişlərinin inkişafına dair müəllimlərə, pianoçu-ifaçılara praktik köməklik göstərə biləcək elmi-pedaqoji ədəbiyyat demək olar ki, yox dərəcəsindədir. Fortepiano təlimi prosesində müəllimlər üzdən (notdan) oxu vərdişlərinin formalaşmasına və inkişafına xüsusi diqqət yetirmirlər, həmçinin dərs prosesində notdan ifa üzrə işə lazımı qədər vaxt ayırmırlar. Bunun əsas səbəblərindən biri müəllimlərin dərs vaxtının əsas hissəsini proqram üzərində işə, tədris reperturının hazırlanmasına həsr etdiyində görmək olar. Müəllimlər əsas vaxtını və gücünü proqrama daxil olan əsərlərin konsert və imtahanlara tam hazır olmağına sərf edirlər. Azərbaycan dilində müvafiq dərsliklərə, elmi-metodik və pedaqoji ədəbiyyata malik olmadığından çox zaman müəllimlər fortepiano sinfində təlim prosesini metodik cəhətdən düzgün təşkil edə bilmirlər.

Tanınmış pedaqoq-alim Minarə Dadaşova "Musiqi müəlliminin hazırlığının metodikası" dərs vəsaitində çox düzgün olaraq göstərir ki, son illərdə R.Verxolazinin, T.Berkmanın nəzəri tədqiqatlarının nəşri, musiqi-pedaqoji təcrübəyə əsaslanan M.Şarikovanin, F.Bryanskayanın uşaq musiqi məktəbləri üçün dərs vəsaitlərinin nəşri göstərir ki, fortepianoda üzdən (notdan) oxuma təliminin sistemli şəklində metodikasının işlənilməsinə maraq tədricən artıb [2, s.203].

Təqdirə layiq haldır ki, Gəncə Dövlət Universitetində "Musiqi müəllimliyi" bakalavriat peşə-ixtisas hazırlığında "Notdan (üzdən) ifa" fənninə "Peşə hazırlığının seçmə fənləri" bölümündə (Blok-5) yer ayrılmışdır. Pedaqoji təçrübə göstərir ki, bu fənn "Musiqi müəllimliyi" ixtisası üzrə kadr hazırlığında olduqca vacibdir və tələbələr bu fənnə böyük maraq göstərirlər. Universitetin "Musiqi fənləri" kafedrasında professor S.Qurbanəliyevanın rəhbərliyi ilə "Notdan (üzdən) ifa" fənni üzrə hazırlanmış tədris proqramında göstərilir ki, müəllim tələbəni hazırlaşmadan notdan (üzdən) ifa etmə bacarığının formalaşdırılmasını düzgün istiqamətləndirməli və ona rəhbərlik etməlidir [3, s. 65]. Proqramda notdan (üzdən) oxu fənninin məqsəd və məzmunu, təlim nəticələri, əldə olunacaq təcrübə, notdan hazırlaşmadan ifa etmək vərdişlərinin aşılanması üçün tədris materialının düzgün seçiminin əhəmiyyəti və yolları, tədris prosesinin forma və üsulları, qiymətləndirmə meyarları və s. məsələlər geniş şərh olunmuşdur.

Uşaq musiqi və incəsənət məktəblərində, musiqi kollecləri və musiqi təmayüllü universitetlərdə şagird və tələbələrin musiqi bacarıqlarının və intellektlərinin inkişafı məqsədinə praktiki nail olmaq üçün musiqi əsərlərinin üzdən (notdan) ifasını əsas vasitə kimi dəyərləndirmək olar.

Üzdən (notdan) oxu fəaliyyəti ifaçıda yeni təəssuratlar oyadır, zəngin və rəngarəng musiqi ədəbiyyatı ilə tanışlıq imkanı yaradır. Müşahidələr göstərir ki,

üzdən (notdan) ifaya çox vaxt ayıran tələbələrin musiqi təfəkkürü fəallaşır, onların qavrama qabiliyyəti daha parlaq, iti, canlı olur.

Üzdən (notdan) oxu prosesi bir fəaliyyət növü kimi, ilk növbədə ifaçıya zəngin musiqi ədəbiyyatı ilə geniş və hərtərəfli tanışlıq imkanı yaradır. Musiqiçilər musiqi əsərlərini üzdən (notdan) oxuyarkən müxtəlif bəstəkarların yaradıcılıqları ilə, fərqli janrlara və bədii üslublara, tarixi dövrlərə aid olan əsərlərlə yaxından tanış olur və öz ümumi musiqi inkişafını, savadını artırırlar. Belə ki, üzdən (notdan) oxu prosesi – musiqi təəssuratlarının daim yeniləşməsi, zəngin və müxtəlif xarakterli musiqi informasiyasının intensiv axını deməkdir. Pedaqoji müşahidələr göstərir ki, üzdən (notdan) oxu zamanı tələbələrin musiqi təfəkkürü canlanır, qavrama qabiliyyəti inkişaf edir.

Musiqi əsərini üzdən (notdan) oxu prosesinin fasiləsizliyini təmin etmək bacarığı ifaçının həmin an çaldığı mətn ilə yanaşı sonra gələn materialı qabaqcadan duymaq qabiliyyətindən asılıdır. Bu mürəkkəb prosesi tanınmış pedaqoq Mariya Nikolayevna Barinova (1844-1919) "Gözlərlə kəşfiyyat" adlandırmışdır. Ümumi cizgilərdə üzdən (notdan) oxu prosesinin sxemini belə göstərmək olar: ilk növbədə ifaçı musiqi mətninin müəyyən hissəsini bir baxışla gözdən keçirir ("irəli baxır"); notları gördükdə ifaçı daxili musiqi-eşitmə qabiliyyətinin köməyi ilə onları öz şüurunda, təsəvvüründə canlandırır, sonra isə klaviaturada lazım olan dillərdə ifa edir. Bu prosesdə məşhur olan "görürəm-eşidirəm-çalıram" düsturu öz təsdiqini tapır. Təcrübə göstərir ki, hazırlaşmadan üzdən (notdan) oxu prosesinin keyfiyyəti və sürəti ifaçının təcrübəsindən və daxili eşitmə qabiliyyətinin səviyyəsindən asılıdır [4, s.148].

Tanınmış alim Boris Mixayloviç Teplov (1896-1965) "Musiqi qabiliyyətlərinin psixologiyası" kitabında yazır: "Yüksək səviyyədə inkişaf etdirilmiş daxili eşitmə qabiliyyəti olan ifaçılar gözlə oxuduğu not mətnini sanki "eşidirlər". Dahi pianoçu F.List tanımadığı əsərləri üzdən (notdan) ifa edərkən, irəlidə olan not mətninin ən azı səkkiz xanəsini gözdən keçirirdi [4, s.149]. Eyni qabiliyyətə Serqey Vasilyeviç Raxmaninov, Aleksandr Borisoviç Qoldenveyzer, Feliks Mixayloviç Blumenfeld kimi dahi musiqiçilər də malik idi.

Üzdən (notdan) oxu prosesinin ikinci şərti – klaviaturaya baxmadan ifa üsuludur. İfa zamanı gözünü çəkmədən not mətnini izləmək bacarığı üzdən (notdan) oxu prosesinin səlis, fasiləsiz axarını təmin edir. Bu mürəkkəb və vacib olan qabiliyyət, ifaçının öz əllərinə baxmadan ifa etmək bacarığı ilə sıx bağlıdır. Əgər ifaçı klaviaturaya yaxşı bələd deyilsə və dillərin olduğu yerin səmtini müəyyən edə bilmirsə o hər saniyə gözünü not mətnindən çəkərək klaviaturaya (əllərinə) baxmaq məcburiyyətində qalır. Təbii ki, belə halda ifaçı musiqi materialının üzərində olan nəzarətini itirir və dayanmalara, səhvlərə yol verir.

Musiqi-eşitmə qabiliyyətinin köməyi ilə gənc pianoçu-ifaçılar

klaviaturaya baxmadan ən sadə not birləşmələrini təsəvvüründə canlandırmağı və çalmağı öyrənməlidirlər.

Üzdən (notdan) oxu prosesinin üçüncü şərti – müxtəlif faktura növlərinin mükəmməl öyrənilməsidir. İfa zamanı bir baxışdan fakturanın ümumi cizgilərini, səs ardıcıllığının istiqamətini, müxtəlif akkord stereotiplərini (üçsəslilər, septakkordlar və dönmələri), əsas texniki formullarını (qamma, arpeciolar, melizmlər və s.) dərhal tanımaq və anlamaq üzdən (notdan) oxu prosesinin keyfiyyətini və sürətini artırır. F.Listin tələbəsi A.Buasye "Ferens Listin dərsləri" kitabında yazır: "Aydındır ki, əllərini və gözlərini müxtəlif səs və faktura kombinasiyasına öyrəşdirərkən, hər bir musiqi əsərini asanlıqla üzdən (notdan) oxuya bilərsən" [5, s.19].

Üzdən (notdan) oxumaq vərdişdir, yəni elə bir fəaliyyətdir ki, təkrar nəticəsində təcrübədə və məşq prosesində qazanılır.

Hazırlaşmadan üzdən (notdan) oxuma vərdişlərinin əsası fortepiano təliminin ilk dərslərindən qoyulmalıdır. Bu gün bütün qabaqcıl pedaqoq və metodistlər "Notdan (üzdən) ifa" fənninin tədrisini mümkün qədər erkən başlanılmasını və bütün təhsil boyu, ifaçıların hazırlıq dövründə davam edilməsinin vacibliyini vurğulayırlar.

Fortepiano ifaçılıq təlimi prosesində müəllim gənc ifaçının üzdən (notdan) oxumaq bacarığının formalaşdırılmasını və inkişafını düzgün istiqamətləndirməli və musiqi əsərini şüurlu, tez, fasiləsiz şəkildə üzdən (notdan) oxumağı oyrətməlidir.

Hazırlaşmadan üzdən (notdan) oxu üçün əsərlərin seçilməsində müəllim mütləq ifaçının fərdi xüsusiyyətlərini, qabiliyyətini, təcrübəsini nəzərə almalıdır.

Hazırlaşmadan üzdən (notdan) oxu vərdişlərinin formalaşmasının psixoloji-pedaqoji əsaslarını nəzərə alaraq, həmin vərdişin inkişafı üçün musiqi əsərlərinin seçilməsində obrazlılıq, ritmik quruluşunun sadəliyi və təkrar olunması, musiqi əsərinin formasının aydınlığı, texniki düsturlarının təkrarı, bədii və faktura çətinliklərinin artırılmasında ardıcıllıq kimi tələblərə riayət etmək məqsədəuyğundur.

Üzdən (notdan) oxu vərdişləri "solo, ansambl ifaları, müşayiət" kimi fəaliyyət növləri əsasında fəal sürətdə formalaşır. Bunun üçün istər xüsusi olaraq fortepiano üçün yazılmış əsərlərdən, istərsə də müxtəlif janrlı əsərlərin fortepiano üçün köçürmələrindən istifadə oluna bilər.

Fortepiano ifaçılığının püxtələşməsində, təkmilləşməsində və ümumiyyətlə fortepiano ifaçılıq mədəniyyətinin artmasında üzdən (notdan) ifanın rolu əvəzsizdir. Üzdən (notdan) oxu tələbələrin ümumi musiqi inkişafına yönələn ən qısa və perspektivli yollardandır. Üzdən (notdan) ifa bacarığı tələbələrdə musiqi təfəkküründün inkişafı prosesində mühüm rol oynayır və onların musiqi-intellektual keyfiyyətlərini formalaşdırır.

ƏDƏBİYYAT

1. Корто А. “О фортепианном искусстве”. Москва, 1965. -246 s.
2. Dadaşova M. “Musiqi müəlliminin hazırlığının metodikası”. Dərs vasaiti. Bakı, 2010.- 256 s.
3. “Notdan (üzdən) ifa” fənni üzrə proqram. Tərtib edənlər: Qurbanaliyeva S., Hacıyeva M., Şabanova S. //“Musiqi müəllimliyi” bakalavriat peşə - ixtisas hazırlığı üçün “Proqram” (1 cild), Gəncə, 2019.- s.65-70.
4. Цыпин Г. “Обучение игре на фортепиано”. Москва, 1984. - 176 səh.
5. Буасье А. “Уроки Листа”. Ленинград, 1964. -76 səh.
6. Савшинский С. “Пианист и его работа”. Ленинград, 1977. -244 səh
7. Abbasquliyev O., Kəngərlinskaya T. “Fortepiano metodikasından mühazirə kursu”. Bakı, 2010.-83 s.
8. Алексеев А. “Методика обучения игре на фортепиано”. Москва , 1971. -288 s.

Saytoqrafiya

9. “Musiqi dünyası” elektron jurnalı. http://www.musigi-dunya.az
10. “Harmony” musiqi kulturuloji beynəlxalq elektron jurnal. http://harmony.musigi-dunya.az

Məqalənin redaksiyaya daxil olma tarixi: 19.07.2021
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.07.2021
Məqalənin çapa qəbul olunma tarixi: 08.10.2021
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.